UOT 339.5

Səmirə Şəmsəddin qızı QULİYEVA
Azərbaycan Dövlət İqtisad Universitetinin dissertantı
Azərbaycan Kooperasiya Universitetinin “Dünya iqtisadiyyatı və regionşünaslıq” kafedrasının baş müəllimi
samire.quliyeva.85@inbox.ru
https://doi.org/10.30546/4.71.73001.2025.001.0178

AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAF MODELİ: YENİLƏŞMƏ YÖNÜMLÜLÜYÜ PROBLEMİ

Xülasə

Tədqiqatın məqsədi qlobal iqtisadi sistemdə baş verən keyfiyyət dəyişiklikləri fonunda milli iqtisadi inkişaf modelinin yönümlülüyünün konseptual-nəzəri aspektdən qiymətləndirilməsi, struktur-funksional istiqamətdə müasir çağırışlara adekvat olan yanaşma tərzinin formalaşdırılmasıdır.

Tədqiqatın metodologiyası - neopozitivizmə istinad edir. Araşdırmada əsasən müqayisə, ümumiləşdirmə, qruplaşdırma, deduksiya və ideallaşdırma metodlarından istifadə olunmuşdur.

Tədqiqatın tətbiqi əhəmiyyəti- müasir dövrdə Azərbaycanın iqtisadi inkişaf modeli ilə bağlı yeniləşmə probleminin araşdırılmasıdır.

Tədqiqatın nəticələri problemin nəzəri-konseptual konstruksiyasının adekvat tərtibatında praqmatik faydalılığın təminatı və inkişaf prosesinin sürətləndirilməsində effektiv istifadə aspektindən yararlıdır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi- yeni kontekstdə Azərbaycanın iqtisadi inkişaf modelinin yeni yönüm zəruriliyi, müasir inkişafın funksional və struktur aspektləri, dayanıqlı inkişafın ekoloji müzakirəsi, iqtisadi inkişaf effektivliyinin yüksəldilməsi istiqamətində konkret fikirlər irəli sürülmüşdür.

Açar sözlər: inkişaf, model, dayanıqlılıq, iqtisadiyyat, ekologiya, sosial sfera.

“Hər bir model öz ölkəsinin üzvi hissəsi kimi formalaşmalıdır”.

Giriş

Dünya iqtisadiyyatının geoiqtisadi strukturu daim dəyişməkdədir. Bu aspektdən milli iqtisadiyyat hər ölkənin timsalında özünəməxsus inkişaf yolu müəyyən etməkdədir. Ölkələrin təbii sərvətləri, hüquqları, iqtisadi potensialı özünəməxsus olduğundan iqtisadi inkişaf da milli sərhədlər daxilində özünəməxsus formada modelləşir. Məhz ona görə də milli iqtisadi inkişaf modeli ayrı-ayrı ölkələrdə təkcə ərazi deyil, həm də məzmun və dəyərlər baxımından fərqlidir. Bu baxımdan “milli iqtisadiyyat”ın inkişaf proseslərində hər bir ölkə üçün fərqli strategiya tətbiq olunur. Milli iqtisadiyyatın təkamülü ilk əvvəl Qərbi Avropada yaranmış, natural təsərrüfatın dağılması, şəhərlərin inkişafı, bank fəaliyyətinin meydana gəlməsi milli dövlətlərin formalaşmasına zərurət yaratmışdır. Getdikcə bu proses sosial-mədəni və sosial-siyasi sferalara da nüfuz etmişdir. Məlumdur ki, iqtisadi inkişaf prosesi bir qayda olaraq iki müstəvidə araşdırılır; Qloballaşma və sivilizasiya; [1].

Fikrimizcə, qloballaşmanın qlobal inkişafın əsası olduğu fikri irəli sürülsə də qlobal səviyyədə “eyniyyət” mümkün ola bilmədiyi kimi, dünya ölkələrinin ziddiyyətləri də bu inkişafa şərait yaratmır. Geniş mənada, qloballaşma müasir dövrün tələbi kimi önəmli rol oynasa da, həlledici rola malik deyildir.

Aydındır ki, iqtisadi inkişafda “dayanıqlılıq” keyfiyyəti..., sosial, siyasi, ekoloji sferalar “fayda”nın əsasını təşkil edir, həmçinin bu sferalar inkişafın dayanıqlığının bazası rolunu oynayır. Bu sahələrdə baş verən dəyişikliklər isə qloballaşmanın nəticəsi kimi təzahür edir. A.Tolstouxov qlobal dayanıqsızlığı 3 səbəblə izah edirdi [2, səh. 53].


1. Elmi-texniki tərəqqinin inkişafı;
2. Neqativ proseslərin miqyasca genişlənməsi / kütləviləşməsi;
3. Kapital miqrasiyasının hərəkətliyinin artması.

“Dayanıqlı inkişaf” – gələcək nəsillərin tələblərini ödəməsinə maneçilik törətmədən inkişafı təmin etməkdir. İqtisadi inkişafın məqsədi gələcəyin qurulmasını təmin etməkdir. Burada 3 nüans önəmlidir: Səmərəlilik, məhdudiyyət şərtləri və tələbin ödənilməsi.

- Gələcək nəsillər üçün ətraf mühiti qoruyub saxlamağa müvəffəq ola bilmək;
- İqtisadi inkişafa ekoloji “mənfi təsir” olmadan nail ola bilmək;
- Hazırkı dövrün tələbatlarını ödəməklə, gələcək nəsillərin tələbatlarının ödənməsinə təhlükə yaratmamaq.

“Dayanıqlı inkişaf”ın ekoloji problemlərlə bağlı ilkin müzakirəsi Roma Klubunun (1972-ci ildə) “Artımın sərhədləri” adlı məruzəsində meydana gəlmişdir. Məruzədə deyilirdi: “Sənaye istehsalının artım tempinin olduğu kimi saxlanması XX əsrin sonunda bəşəriyyəti məhv olmaq təhlükəsilə üzləşdirdi. 1987-ci ildə “Bizim ümumi gələcəyimiz” adlı məruzədə “dayanıqlıq” məsələsi ortaya qoyuldu. Ekologiyanın-siyasi, sosial, iqtisadi, siyasi və texniki istiqamətlərlə qarşılıqlı əlaqədə olmasının önəmi göstərildi[3].

Bununla yanaşı digər fikirlər də mövcuddur: “Ekoloji problemin mərkəzində ətraf mühit deyil, insanın ağlı dayanmışdır” [4].



Şəkil 1. Dayanıqlı inkişafın amillər kompleksi

Dayanıqlı inkişafı təmin etmək üçün qlobal hüquqi tənzimləməyə, qlobal inteqrativ bağlılıqların əmələ gəlməsinə ehtiyac yaranmaqdadır. İnteqrativ bağlılıqlar baş verə biləcək qlobal böhranlar da daxil olmaqla, milli iqtisadiyyatın inkişafının dayanıqlığının, sosial sabitliyin təmin olunmasında əhəmiyyətli rol oynamaq iqtidarındadır. Milli iqtisadiyyatlararası inteqrativ bağlılıqlar mənafelər arasında tarazlığın təmin olunmasında böyük rol oynayacaqdır. Gələcək inkişafın təməl prinsipində məhz bu istiqamətin dayandığını qeyd etməliyik. Ədalətli cəmiyyət (hazırkı dövr, gələcək və təbiətə münasibətdə) yaradılması, ilk növbədə azadlığın təmin olunması əsas istiqamətdir. Azadlıq məhduddursa, iqtisadi effektivlik bir qayda olaraq aşağı səviyyədə qərarlaşır. Bazar iqtisadiyyatı şəraitində isə ədalətsizlik hər zaman mövcuddur. Belə vəziyyətdə dayanıqlı inkişafın təmin olunmasında dövlət bazarı tənzimləməlidir[5].

1. Dayanıqlığın təmin olunmasında makroiqtisadi sabitlik vacibdir;
2. Dayanıqlığın təmin olunması sosial sferanı nəzərə almadan mümkün deyildir.;
3. Milli iqtisadi inkişaf prosesi bir çox hallarda iqtisadi artımla eyniləşdirilir.


Lakin iqtisadi inkişaf kəmiyyət baxımından iqtisadi artımı özündə əks etdirməklə izah oluna bilməz. İqtisadi artımın keyfiyyət aspektinə nəzər yetirmək lazımdır.

Buna görə də, Milli inkişaf modelinin seçimi və tətbiqi istiqamətində “dayanıqlı inkişaf” konsepsiyasına istinad edilməsi vacibdir. Bu konsepsiya 200 ildən artıq bir dövr ərzində mövcud olan

ənənəvi inkişafın məzmunu dəyişərək, 3 əsas prinsipə köklənmişdir: Maksimum gəlir, Maksimum hakimiyyət, Maksimum istehlak[6].

Hesab edirik ki, Skandinaviya ölkələrinin tətbiq etdiyi iqtisadi inkişaf modelinin bəzi komponentlərinin tətbiq olunması milli inkişaf modelinin təkmilləşməsi baxımından əhəmiyyətli ola bilərdi. İlkin olaraq, makroiqtisadi sabitlik və yüksək iqtisadi artıma nail olunması; İkincisi, “görünməyən əl” məfhumu müasir dövrdə artıq “görünən”dir. Tənzimləyici orqan kimi dövlətin konkret məzmunlu mövqeyi olmalıdır. Dövlətin təkcə orta və kiçik deyil, həmçinin iri biznes subyektlərinin inkişafına dəstək verməsi mütləqdir. Bu milli iqtisadiyyatın nəzəri aspektdən 2 önəmli yönümündən biri olan millilik cərəyanının əsas nüanslarından biridir. Üçüncüsü, innovativ texnoloji yeniliyin dövlət tərəfindən dəstəklənməsi; Dördüncüsü, Qiymət və məşğulluq səviyyəsinə dövlət nəzarəti; Beşincisi, insan kapitalı inkişafının təmin olunması.

İnkişaf prosesinin struktur aspektləri



Şəkil 2. İqtisadi inkişafın gerçəkləşməsi prosesinin komponentləri

Beləliklə, iqtisadi tənzimlənmənin həyata keçirilməsində Azərbaycanın iqtisadi inkişaf modelinin əsas xarakterik cəhəti kimi aşağıdakıların təmin olunması məqsədəuyğundur:

1. Sosial ədalətliliyin maksimum təmin olunması, təhsil və bacarıqların dəyərləndirilməsi;
2. Haqsız rəqabətə imkan verməmək üçün dövlət nəzarətinin gücləndirilməsinə çalışılmalıdır. C.Kruqman “Dövlət tənzimlənməsinin aradan qaldırılmasının real sektorda böhrana səbəb olacağını” deyirdi.“ Adekvat hökumət-həyati zərurətdir, effektiv dövlətsiz nə sosial, nə də iqtisadi sferada dayanıqlı inkişaf mümkün deyildir” [7,səh 7-12].
3. İnvestisiyanın əsasən innovativ inkişafa yönəldilməsi;
4. Mütləq ixracyönümlülüyün təmin olunması, dünya bazarı tələblərinə uyğun ixrac siyasəti

aparılması, məhsul çeşidlərinin mütəmadi yenilənməsi;

5. Bazarın dövlət tərəfindən tənzimləmə prinsiplərinin konkret məzmunluluğunun təminatı;
6. Makroiqtisadi tənzimlənmənin rasional sərhədlərinin qorunması;
7. Məhsuldar qüvvələrin inkişafının təmin olunması (xüsusilə insan inkişafı indeksi göstəricilərinin təmin olunması fonunda);
8. Regional fərqlərin aradan qaldırılması;
9. Tibbi və icbari sığorta sisteminin daha da təkmilləşdirilməsi;
10. Daxili və xarici bazar üçün eyni şərtlərin müəyyənləşdirilməsi;
11. Milli - mental dəyərlərin güclü təbliği və sağlam gələcək üçün mənəvi dəyərlərin aşılanmasının dərinləşdirilməsi;
12. İqtisadi infrastrukturun inkişaf etdirilməsi;
13. Azad iqtisadi zonaların yaradılmasına üstünlük verilməsi.

Araşdırmalar nəticəsində məlum olmuşdur ki, inteqrasiya münasibətləri dərinləşdikcə 2008-ci il qlobal maliyyə böhranı bir çox ölkələrdə mənfi nəticələr yaratmış, uzunmüddətli dövrdə iqtisadi artım göstəricilərinin geriləməsi baş vermişdir. Bu qlobal böhran, yuxarıda qeyd etdiyimiz kimi, milli iqtisadiyyatın iki nəzəri cərəyanından biri olan və milli fərqliliyi əsas götürməyən universallığın tənəzzülü idi. Fikrimizcə, dünya ölkələrinə inteqrasiya prosesinin müəyyən sərhədlər çərçivəsində həyata keçirilməsi ölkə iqtisadiyyatını xarici mənfi təsirlərdən qoruya bilər. İnteqrasiya münasibətləri tənzimlənməlidir.

Məlumdur ki, iqtisadi inkişaf modelinin effektivliyinin yüksəldilməsi və təkmilləşdirilməsi üçün ilkin şərt keyfiyyətli işçi qüvvəsinin olması; dövlətin yeni texnika və texnologiyaları idxal etməsi, innovativ istiqamətlərin təmin olunması; İnvestisiyaların ölkə iqtisadiyyatına cəlb olunması; Siyasi sabitlik və ölkənin dünya arenasında mövqeyi əsas faktorlar sırasındadır.

Nəticə

Milli iqtisadi inkişaf, Azərbaycanın iqtisadi inkişaf modeli dayanıqlı inkişafı hədəf götürməklə, müxtəlif istiqamətləri özündə ehtiva edən inkişaf yolu seçmişdir.



Şəkil 3. Milli iqtisadi inkişafın əsas sahələri

Nəticədə, iqtisadi sistemdə struktur dəyişiklikləri yaranmalı, keyfiyyətli iqtisadi artım (iqtisadi resurslardan istifadənin səmərəliliyi) və məhsul-xidmət istehsalının uzun dövr üçün dayanıqlığına nail olunmalıdır. Lakin nəticədən daha çox prosesin gedişi daha əhəmiyyətlidir.

Fikrimizcə, inkişaf elə getməlidir ki, təkcə keyfiyyətli iqtisadi artım şəklində baş verməsin. İnkişaf o zaman inkişafdır ki, bütövlükdə, bütün istiqamətlər üzrə sistematik şəkildə baş verir. Bu proses

isə yalnız keyfiyyətli iqtisadi artımı hədəfləyən iqtisadi siyasətlə mümkün olacaqdır. Hansı ki, tərkibində sosial istiqamətlərə təsiri də əsas məqsəd hesab edəcəkdir. Elə müasir iqtisadi fikirdə İqtisadi inkişaf nəzəriyyəsinin banisi olan Y. Şumpeter də iqtisadi artım və inkişaf anlayışlarını kəmiyyət və keyfiyyət prizmasından fərqləndirirdi. “Nə qədər istəyirsinizsə, poçt faytonlarını ard-arda düzün. Dəmiryolu əldə etməyəcəksiniz! İnkişafın əsas hərəkətverici qüvvələri innovasiyalar və sahibkarlıqdır. İnnovasiyalar isə ayrılıqda deyil, digər şərtlərlə əlaqəli olduqda yeniliyi ehtiva edə bilər”.

İqtisadi inkişaf modelində əsas istiqamət ixracyönümlü strategiya olmalıdır. Uduşun maksimumlaşdırılması, azad ticarət həyata keçirilməsi, rəqabətqabiliyyətliliyin beynəlxalq istiqamətdə artırılması, dünya bazarına çıxış və maksimum pay haqqı əldə olunmasının hədəflənməsi əsas götürülməlidir. İxracyönümlü model olan innovasiya modeli ilə qarşılıqlı tətbiq edilməsi xüsusi effekt verə bilər. Lakin ixracyönümlülüyün gələcək üçün, yəni uzunmüddətli dövr üçün tətbiqi, əvvəla rəqabətqabiliyyətliliyi özündə əks etdirir və ilkin olaraq ucuz işçi qüvvəsi, ikinci isə ixtisaslı işçi qüvvəsi, yüksək təhsilli işçi amilinə söykənir. Ucuz işçi qüvvəsi uzun dövr üçün xarakterik olmadığından ixracyönümlülüyün uzun müddət üçün xarakterik olması çətin məsələdir. Belə olduğu halda daxili bazarın gücləndirilməsi, məcmu tələbin artması, əks-inhisarlaşma siyasətinin aparılmasına təkan verilməsinə çalışmaq lazımdır.

İqtisadi inkişaf modelini əsaslandıran alimlərdən Klark-Fişerin 3 amilli modeli bir ölkənin iqtisadi inkişafının təmin olunmasında aqrar-sənaye-xidmət sektorunda ixtisaslaşma və texnoloji inkişaf sayəsində investisiya qoyuluşunun tətbiqini nəzərdə tutur. Modelə istinadən zaman keçdikcə 1 və 2-ci amil geriləmə göstərməli, üçüncü sektor isə daha çox əhəmiyyət daşımalıdır. Klark-Fişer modelində əks olunduğu kimi, yeni iş yerlərinin açılmasının hədəflənməsi mütləqdir[8].

Zaman keçdikcə inkişaf sənaye və xidmət sektoruna yönəlir. İşçi qüvvəsinin gəliri artdıqca qida, geyim, mənzil kimi təməl ehtiyaclar lüks ehtiyaclara doğru yerdəyişmə əmələ gətirir.

ƏDƏBİYYAT

1. И.Шумпетер. Теория экономического развития. М; Прогресс;1982.
2. Л.В.Толстоухов. Глобалный социалъный контекст и контуры экобудущего/ Вопросы философии; 2003, стр.53
3. Х.Босселъ. Показатели устойчивого развития: Теория, методика и.т.д. Тюменъ, 2001.
4. Ə. Bayramov. İqtisad elminin fəlsəfəsi: zaman, həqiqət və azadlıq. Bakı- 2016.
5. V.Bayramov. “Milli iqtisadiyyatın dayanıqlılığı” Monoqrafiya. Bakı-2019.
6. В. Репке. Конюктура М.Финиздси. 1927.
7. The state and changing model. Washington. 1997, p. 7-12.
8. Л.И. Бернасовская, А.Д. Викторов и др. Системный подход к прогнозированию устойчивого развития региона. М., 2010.

Самира Шамсаддин кызы Кулиева
диссертант, Азербайджанского Государственного Экономического Университета
главный предподаватель, кафедры “Мировой экономики и регионоведения” Азербайджанского Кооперативного Университета
E-mail: samire.quliyeva.85@inbox.ru

Модель экономического развития Азербайджана: проблема инновационного направления

Резюме

Цел исследования – оцценка соответствия модели национального экономического развития на фоне качественных изменений, происходящих в мировой экономической системе, концептуально-теоретической точки зрения, формирование адекватного современного подхода в структурно-функциональном направлении.

Методологии исследования – Относится к неопозитивизму. В исследовании преимущественно использовались методы сравнительного обобщения, группировки, дедукции и идеализации.

Практическое значение исследования - опосредование проблемы обновления, связанной с моделью экономического развития Азербайджана в современную эпоху.

Результаты исследования -полезно с точки зрения обеспечения прагматической полезности в адекватной постановке теоретико-концептуального построения проблемы и ускорении процесса разработки.

Оригиналъность и научная новизна исследования - В новом контексте выдвинуты необходимость нового направления модели экономического развития Азербайджана, функсиональные и структурные аспекты совроменного развития, экологическая дискуссия по устойчивому развитию, а также конкретные идеи в направлении повышения эффэктивности экономического развития.

Ключевые слова: развитие, модель, устойчивость, экология, социальная сфера

"Каждая модель должна формироваться как неотъемлемая часть страны".

Samira Shamsaddin Guliyeva
respondent, Azerbaijan State University of Economics
head teacher, of the department of "world economy and regional studies" of Azerbaijan CooperativeUniversity
E-mail:samire.quliyeva.85@inbox.ru

"Each model should be formed as an integral part of the country".

Summary

The purpose of the study – Against of qualitative changes occuring in the qlobal economic system, it is the evalution of the direction of national economic development model from a conceptual-theoretical aspect, the formation of an approach adequate to modern challenges in the structural-functional direction.

The study methodology – refers to neopositivism, the research used the methods of grouping, deduction and idealization to compare and contrast.

Applied significance of the study – It is the mediation of the problem of renewal related to the economic development model of Azerbaijan in the modern era.

The study results - It is useful from the aspect of effective use in the provision of programmatic utility in the adequate design of the theoretical conceptual construction of the problem and in speeding up the construction process.

Originality and scientific novelty of the study – The new codex, the need for a new orientation of the economic development model of Azerbaijan, the functional and structural aspects of modern development, the ecological discussion of sustainable development, concrete ideas were put forward in the direction of increasing the efficiency of economic development.

Keywords: development, model, sustainability, economy, ecology, social sphere.